**«AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏKTƏB TƏLƏBƏLƏRİ ÜÇÜN PREZİDENT TƏQAÜDÜNÜN ARTIRILMASI HAQQINDA
AZƏRBAYCAN RESPUBLİKASI PREZIDENTİNİN FƏRMANINI**

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək və onların təhsilə olan həvəsini artırmaq məqsədi ilə

**QƏRARA ALIRAM :**

1. Azərbaycan Respublikasının ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş tələbələr üçün Prezident təqaüdünün məbləği 50 faiz artırılaraq 150 (yüz əlli) manat müəyyən edilsin.

2. «Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilk Toplusu, 2001-c i il, №9, maddə 579 ; 2004-cü il №9, maddə 684 ; 2006-cı il №12, maddə 1056) 1-ci bəndində «500.000 (beş yüz min) manat» sözləri 150 (yüz əlli) manat» sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman 2008-ci il sentyabrın 1-dən qüvvəyə minir.

***İlham Əliyev***

***Azərbaycan Respublikasının Prezidenti***

***Bakı şəhəri, «10» sentyabr 2008-ci il***

***№ 824***

---

**Azərbaycan Respublikasi Təhsil Nazirinin əmri**

Azərbaycan Respublikası Prezidentinin göstərilən fərmanının icrası ilə əlaqədar

**ƏMR EDİRƏM :**

1. Azərbaycan Respublikası Prezidentinin Fərmanı rəhbərlik və icra üçün qəbul edilsin.

2.Təhsil müəssisələrinin rəhbərlərinə tapşırılsın ki, fərmanın yerlərdə icrasını təmin etsinlər.

3. İqtisadiyyat şöbəsi (H.Zeynalov), ali və orta ixtisas təhsili şöbəsi (İ.Mustafayev) fərmandan irəli gələn məsələlərin həllində təhsil müəssisələrinə lazımi köməklik göstərsinlər.

4. Ümumi şöbə (İ. Mirzəyev) əmrin çoxaldıb təhsil müəssisələrinə göndərilməsini təmin etsin.

***Misir Mərdanov***

***Təhsil naziri***

***27.09.2008-ci il***

***№114***